# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №21 (61) • 25.07.2011


AzadliqRadiosu.az®


2 aprel məhbusu: **«Bizim məhkəməmiz «avtobus şousu»dur»**
səh.2

**Şahin Həsənli iki il azadlıqdan məhrum edildi**
səh.4

**Azərbaycanla Türkiyə arasında vizanın ləğvinə İran niyə etiraz edib?**
səh.8

**«Elçibəyin yanından qayıdarkən yolda güllələndi»**
səh.10

**Naxçıvanda elm adamları nədən küçə süpürür?**
səh.11

Flora Kərimova:
**«... həyatımı korreksiya edərdim!»**
səh.12

**Şair üç övladı ilə Yazıçılar Birliyində aclıq aksiyası keçirdi**
səh.13


## Əsgərin boynu niyə sındırılıb?



Sabirabad sakini Rizvan Əliyev:
**"Oğlumun vəziyyəti ağırdır"**
səh.6

## Hacıqabul-Kürdəmir yolu:
## 70 milyon + 352 milyon

24 dekabr 2007-ci ildə 70 milyon ABŞ dollarına yenidən qurulan Bakı-Qazax avtomobil yolunun Hacıqabul-Kürdəmir hissəsinin açılış mərasimi olmuşdu. Lakin yolun həmin hissəsi yenidən qurulur və buna 352 milyon dollar xərclənəcək. Layihənin maliyyələşdirilməsinə dair Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Çexiyanın «Komercni banka A.S.» bankı arasında kredit müqaviləsi imzalanıb.
səh.9




**Norveçdəki terror hücumunun ikisini də 32 yaşlı Breivik törədib**
səh.3

Baş Prokurorluq:
**Məktəb tikintisində mənimsəmə aşkarlanıb**
səh.5

**Задержан гражданин Армении, подозреваемый в шпионаже**
səh.7

# 2 aprel məhbusu: «Bizim məhkəməmiz «avtobus şousu»dur»


Sahib Kərimov

**İstintaq materiallarında mənim nə isə sındırdığıma və ya digər hər hansı cinayət etdiyimə dair bircə kəlmə, bir şahid ifadəsi də yoxdur. Belə olan halda mən nəyə görə həbsdəyəm?**

İctimai Palatanın 2 aprel aksiyası zamanı həbs olunmuş AXCP sədrinin müşaviri Sahib Kərimov bu sualla məhkəməyə, hakimə üz tutdu. İyulun 22-də Səbayel Rayon Məhkəməsində 2 aprel aksiyası zamanı həbs olunmuş 6 nəfərin işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Bunlar AXCP üzvləri - Sahib Kərimov, Babək Həsənov, Zülfüqar Eyvazov, Arif Alışlı, Müsavat üzvü Elşən Həsənov və bitərəf Elnur İsrafilovdur.

Onlar Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 186.1-ci (özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə) maddəsi ilə təqsirləndirilirlər. İttiham aktında deyilir ki, bu 6 nəfər asayişi pozub, polisin tələbinə məhəl qoymayıb, 25 mülki şəxsə və polisə xəsarət yetirib. Eyni zamanda hərəkətdə olan avtobusu dayandırıb üç nəfəri qaçırdıblar, həmin avtobusa 1325 manat ziyan vurublar.

### «AVTOBUS ŞOUSU»

Zərərçəkənlərin nümayəndələrinin də iştirak etdikləri prosesdə AXCP sədrinin müşaviri Sahib Kərimov və AXCP Nizami rayon şöbəsinin sədri Zülfüqar Eyvazov sərbəst ifadə veriblər, dövlət ittihamçısı ilə vəkillərin suallarını cavablandırıblar. AXCP sədrinin müşaviri Sahib Kərimov ifadəsində bildirib ki, ittiham saxtadır, qərəzlidir və ortalıqda heç bir cinayət faktı yoxdur. O, məhkəmə işini «avtobus şousu» adlandırıb:

- Mən, sadəcə, avtobusun qapısını yumruqla döyüb sürücüyə demişəm ki, «aç qapını!». Hər gün 200 min adam avtobusun qapısını döyüb «qapını aç!» deyir. İstintaq materiallarında da var ki, sürücü mənim şüşəni sındırmadığımı deyir. Mən sürücüyə «açın qapını!» dediyimə görə həbsdəyəm, yoxsa «demokratiyaya qapını açın!» dediyimə görə?

Sahib Kərimov məhkəməni də azad hesab etmədiyini, siyasi sifarişlə işlədiyini bildirib. Zərərçəkənlərdən biri Sahib Kərimova sual verib:

*- Siz sürücünün başını qatmısız, bu müddətdə bir başqası arxadan gəlib avtobusa zərər vurub. Belə olan halda siz özünüzü avtobusa zərər dəyilməsində günahkar hesab etmirsiz?*

Zərərçəkənin bu sualı zalda gülüş


Zülfüqar Eyvazov

doğurub. Sahib Kərimov:

*- Sürücünün fikri məndə qalmasaydı belə, o, öz yerində otura-otura avtobusa arxadan dəyən təpiyin qarşısını necə ala bilərdi ki?*

### «VƏZİFƏMDƏN İSTEFA VERMƏDİYİMƏ GÖRƏ HƏBS OLUNMUŞAM»

Məhkəmə prosesində AXCP-nin Nizami rayon şöbəsinin sədri Zülfüqar Eyvazov da sərbəst ifadə verib. O deyib ki, etiraz aksiyasına şüurlu şəkildə, korrupsiyaya, inhisarçılığa, antidemokratiyaya «yox» demək üçün gedib. Zülfüqar Eyvazov bildirib ki, avtobusa zərər vurmaqda ittiham olunsa da, videoyazılar açıq-aydın bu ittihamın düzgün olmadığını göstərir:

- Mən, sadəcə, əlimi uzadıb avtobusun


Fəxrəddin Mehtiyev

pəncərəsini bağlamışam.

Dövlət ittihamçısı:

*- Pəncərəni nəyə görə bağlamaq istəmisiz?*

Zülfüqar Eyvazov:

- Avtobusun içərisində partiyamızdan olan qadınlar var idi. Avtobusun kənarında isə xeyli sayda tanımadığım adamları görüb şübhələndim ki, içəridəki qadınlara zərər vura bilərlər. Amma indi pəncərəni bağlamağıma çox peşmanam, çünki sonradan bilmişəm ki, avtobusun içərisinə qaz vurublarmış.

Zülfüqar Eyvazov onu da deyib ki, əvvəlcə onu şahid qismində ifadə vermək üçün polis bölməsinə dəvət ediblər. Daha sonra bölmədə ona təklif ediblər ki, partiyanın Nizami rayon şöbəsinin sədri vəzifəsindən istefa versin. Buna razılaşmadığına görə onu həbs ediblər.

### VƏKİLLƏR HƏLƏ Kİ, MƏHKƏMƏ İCLASININ GEDİŞİNDƏN RAZIDIRLAR

Zülfüqar Eyvazovun vəkili Natiq Mustafayev isə məhkəmədən ədalətli qərar gözləməsə də, hələ ki, prosesin hüquqi norma və qaydalara uyğun keçirildiyini deyir. O ki qaldı müdafiə etdiyi şəxsə:

- Zülfüqar Eyvazovun əməlində, ifadəsində heç bir cinayət tərkibi yoxdur. 186.1-ci maddədən söhbət gedə bilməz, çünki elə bir hərəkət qeydə alınmayıb.

AXCP üzvü Babək Həsənovun vəkili Fəxrəddin Mehtiyev də deyir ki, məhbuslara qarşı ittihamın saxta olduğu gün kimi aydındır:

- Məhkəmə dinləmələri də göstərdi ki, ittiham nə qədər saxta və əsassızdır. Bu gedişlə ittiham hökmü çıxarmaq mümkün deyil.

Həbs olunanların yaxınları və ailə üzvləri isə həm də məhkəmə iclaslarının uzanmasından narazıdırlar. Növbəti məhkəmə iyulun 27-nə təyin olunub.

Işdən sonra

**Günün ən çox danışılan hadisələri, ən maraqlı müzakirələr, ən sərt suallar. Həftənin iş günlərində saat 17-dən 19-can AzadlıqRadiosunun efirində. Verilişi canlı dinləmədikdə sonradan ona AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**

# Norveçdəki terror hücumunun ikisini də 32 yaşlı Breivik törədib


Anders Behring Breivik

**İyulun 22-də Norveç paytaxtında dalbadal iki terror aktı törədilib. Əvvəlcə Oslonun mərkəzindəki hökumət binaları kompleksi yaxınlığında partlayış olub. 7 nəfər ölüb, 19 nəfər yaralanıb.**

Bir neçə saat sonra isə polis formasında olan norveçli paytaxt yaxınlığındakı adada yerləşən gənclər düşərgəsində toplaşanlara atəş açıb. Burada 85 nəfər ölüb. Polis atəş açmaqda şübhəli bilinən şəxsi saxlayıb. Bildirilir ki, saxlanılan ultra-sağçı qruplaşmalarla bağlı olan etnik norveçlidir və onun paytaxtdakı partlayışla əlaqəsi var. Həbs edilmiş 32 yaşlı Anders Behring Breivik bildirib ki, 92 adamın ölümüylə nəticələnmiş hər iki hücumu o törədib. Bu barədə hüquqşünas Qeyr Iippestad Norveç televiziyasına müsahibəsində deyib. Lippestad onun yerli norveç olduğunu deyir.

**TERRORÇU TƏK OLMAYIB**

Breivik deyir ki, bu cür hərəkətlərin amansızlıq, qəddarlıq olduğunu bilir, amma hesab edir ki, belə etmək lazım idi. Məlumatlara görə, o, internetdə bu hücum, ona hazırlıq barədə 1500 səhifəlik sənəd yerləşdirib. Bundan əlavə Breivik Twitter səhifəsində hücumla bağlı xəbərdarlıq yazıb. Qatı sağçı xristian fundamentalist və antimüsəlman Anders Brevik bazar ertəsi məhkəmə qarşısında dayanacaq. Onun Osloda törətdiyi partlayış və Utoyya adasındakı gənclər düşərgəsinə etdiyi silahlı hücum nəticəsində 92 adam ölüb.BMT-nin Təhlükəsizlik Şurası bu hücumları kəskin pisləyib, onu terror aktı adlandırıb.

# Hüquq müdafiəçisi: "Məni hakimiyyət tutdurub"


Vidadi İsgəndərli

**"Saxta seçki keçirilməsini sübut etdiyimə görə həbsdəyəm"**

İyulun 21-də Göyçay Rayon Məhkəməsində həbsdə olan hüquq müdafiəçisi Vidadi İsgəndərlinin işi üzrə məhkəməsi davam edib. Məhkəmə iclası başlamamışdan Vidadi İsgəndərli zaldakılara üzünü tutdu:

- Məni Azərbaycanın siyasi hakimiyyəti tutdurub. Prosesin gedişində həbsimdən sonra kimlərin üstümə hansı xahişlərlə göndərildiyini açıqlayacağam. Məni Azərbaycanda saxta seçki keçirilməsini sübut etməyimə görə həbs ediblər. Bununla da saxta seçki keçirilməsini sübut etmiş olublar. Mən İlham Əliyevə müraciət edib seçki saxtakarlıqları barədə məlumat vermişəm. İstəyim budur ki, bütün ölkə vətəndaşları kimi əziz göyçaylılar da normal yaşasınlar. Məni İctimai Palatadakı çıxışlarıma görə həbs ediblər. Demişəm ki, korrupsiya ilə mübarizəni Saakaşvili kimi apararlar. Bunu mənə açıqaşkar deyiblər.

*" Dəliyəm, vallah başım işləmir "*

Zərərçəkən Ramiz Əsədov:

- Mən kəmsavad adamam, nə deyim. Burada nə baş verdiklərini də anlamıram. Vallah doxtur mənə bu "benzopar" dərmandan gündə yarım həb atmağı tapşırıb. Mən dünənki prosesdən sonra bundan 7-sini atmışam. Dəliyəm, vallah başım işləmir.

Hakim:

- Seçki günü nə görmüsüz onu deyin.

Zərərçəkən:

- Mən bu kişini görməmişəm. Orda nə olub bilmirəm.

Prokuror:

- İbtidai istintaqda ifadə verəndə də belə demisiz?

Zərərçəkən:

- Müstəntiqə də belə dedim. Bəlkə nəsə əlavə edib, nə deyim?

Vəkil:

- Vidadi İsgəndərli sizə hədə-qorxu gəlib?

Zərərçəkən:

- Yox, vallah olmayıb belə şey.

Vəkil:

- Siz Vidadi İsgəndərlini tanıyırsız.

Zərərçəkən:

- Dedim ki, görməmişəm də bu adamı.

Vidadi İsgəndərlinin vəkilinə təşəkkür etməsinə dövlət ittihamçısı belə dedi:

- Sevinməyin, bütün bunların xeyri yoxdur.

***Esmira Cavadova***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Azərbaycan Türkiyənin «Nabucco» addımları barədə**


**Goga Ashkenazi və prezidentin kürəkəni**


**Georq Xazai Azərbaycana 1000 kitab bağışladı**



**Amnesty İnternational C.Savalanlının müdafiəsi üçün kampaniyaya başlayıb**


**Sübadasında qızlar ağ qayıqlı şahzadə gözləyir...**

# Bəxtiyar Hacıyev Güzdək həbsxanasına köçürülüb



Güzdək həbsxanası

**Gənc fəal Bəxtiyar Hacıyev Güzdəkdə yerləşən 14 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb. Bu barədə onun ailə üzvlərinə 3 saylı Şüvəlan Təcridxanasından bildiriblər. Gəncədə yaşayan ailə üzvləri bildirir ki, bundan sonra Bakıdan kənarda və nəqliyyat imkanları məhdud olan Güzdəyə necə gedəcəklərindən narahatdırlar.**

B. Hacıyev onun müdafiə qrupunun üzvlərinə bunları bildirib:

**«HAKİMLƏRƏ 10 MİN MANAT RÜŞVƏT VERİB 2 İL HƏBS CƏZASI ALDIĞIMI DEDİM»**

«Həbsxana kamerasına yeni gətirilən dustağa iki nəfəri qətlə yetirdiyimi, hakimlərə 10 min manat rüşvət verib 2 il həbs cəzası aldığımı dedim. Heyrətlənmədi, dəhşətə gəlmədi. Sonra «təhsil almaq, əslində isə hərbi xidmətdən yayınmaq məqsədi ilə ABŞ-a gedib Harvard Universitetində magistraturada təhsil aldığımı» (ittiham aktından sitat - B.H) və buna görə də nəzərdə tutulan maksimum cəza - 2 il həbs cəzası aldığımı dedim. Təəccübləndi, heyrətləndi. Hakimiyyət isə ölkədə hüquqi dövlət qurulduğunu iddia edir».

Güzdəkdə yerləşən 14 saylı həbsxanada 17 ay saxlanılan blogger Adnan Hacızadə dünya praktikasından misal çəkərək deyir ki, insanlar cəzasını öz evinə, ailəsinə yaxın yerdə çəkməlidir. Blogger düşünür ki, Bəxtiyarın məhz Güzdəkdəki cəzaçəkmə müəssisəsinə keçirilməsini çox mənfi qarşıladığını deyir. Adnan Hacızadə həmin cəzaçəkmə müəssisəsinin, ümumiyyətlə, bağlanmasının tərəfdarıdır:

**«ORANIN ŞƏRAİTİ HƏDDİNDƏN ARTIQ PİS İDİ»**

«Oranın şəraiti çox, həddindən artıq pis idi. Su ilə bağlı problemlər var idi. İkincisi, şəhərdən çox-çox uzaqdır o yer və ora aparan yol demək olar ki, yoxdur. Gərək böyük maşının olsun ki, ora çatasan. Üçüncü çətinliyi odur ki, ətrafında daş karxanaları var. Onlar gecə-gündüz işləyirlər. Azca külək qalxanda, toz dolur sənin yeməyinin içinə, ağ ciyərinə, sifətinə, elə tufanlar qalxır ki, göz-gözü görmür. Mən Bəxtiyarı cinayətkar hesab etmirəm. Ümumiyyətlə, onun həbsini pisləyirəm».

***Vüsalə Əlibəyli***

# Azərbaycan təyyarəçilərinin cəsədləri ekspertizadan keçiriləcək

*İyulun 6-da Əfqanıstanda qəzaya uğramış Azərbaycan təyyarəsinin ekipaj üzvlərinin cəsədlərinin tanınması üçün DNT ekspertizası aparılacaq. Bu məqsədlə də həlak olanların qohumlarından analizlər götürülür. Bu barədə hadisənin araşdırılması üzrə Azərbaycan komissiyasının üzvü Adil Qasımov bildirib: «DNT ekspertizası nəticəsində tanınması mümkün olacaq cəsədlər qohumlarına veriləcək. Tanınması mümkün olmayanlar itkin düşmüş elan ediləcəklər».*

Adil Qasımov deyib ki, ekipaj üzvlərinin meyitləri yaxın vaxtlarda Bakıya gətiriləcək. Azərbaycanın «Silk Way» aviasiya şirkətinə məxsus «İL-76» təyyarəsi iyulun 6-sı Bakı vaxtı ilə 02:10 radələrində Baqram hava limanına enməyə hazırlaşarkən onunla rabitə kəsilib və radarlardan itib. 9 ekipaj üzvünün hamısı həlak olub. Onlardan 5-i Azərbaycan, 4-ü Özbəkistan vətəndaşıdır.



# Şahin Həsənli iki il azadlıqdan məhrum edildi

*İyulun 21-də Şəmkir Rayon Məhkəməsində AXCP fəalı Şahin Həsənlinin iki il müddətinə azadlıqdan məhrum edilməsi barədə qərar çıxarılıb. Məhkəmədə Şahin Həsənli deyib ki, məhkəmə istintaqı səthi aparıb. Onun sözlərinə görə, həbsindən bir neçə gün əvvəl polis onun evinə, hətta anasının evinə zəng edib tez-tez onunla maraqlanırmış. Lakin bütün bunlar barədə məhkəmə heç bir araşdırma aparmayıb. Güllələrin cibinə polis tərəfindən qoyulmasını, heç bir günahı olmadığını deyən Şahin Həsənli həmçinin dövlət işində işləyən yaxın qohumlarının onun məhkəməsi prosesi müddətində işdən çıxarıldığını da deyib. Vəkil Mənsum Bayramov AzadlıqRadiosuna deyir ki, bu, ədalətsiz hökmdür və apelyasiya şikayəti veriləcək.*

**«ŞAHİN HƏSƏNLİNİN HƏBSİ, SADƏCƏ, REPRESSİYADIR»**

AXCP sədri Əli Kərimli Şahin Həsənlinin həbsini siyasi sifariş və hakimiyyətin repressiya tədbiri kimi qiymətləndirib:

«Şahin Həsənli 2 aprel mitinqi ərəfəsində, məhz mitinqin qarşısının alınması məqsədi ilə həbs olunub. Şəmkir rayonunda şərlənib, cibinə güllə qoyublar, məhkəmə prosesində baş verənlər də ittihamın qondarma olduğunu göstərdi. Şahin Həsənlinin həbsi, sadəcə, repressiyadır».

Şahin Həsənli İctimai Palatanın 2 aprel aksiyasından əvvəl- martın 31-də, Şəmkirdə dostunun evində olarkən saxlanılıb. O, qanunsuz odlu silah, onun hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə maddəsi ilə ittiham olunur.

**AzadliqRadiosu.az saytında daimi rubrikalar:**



# Məktəb tikintisində mənimsəmə aşkarlanıb



**Azərbaycanda məktəblərin tikintisində yol verilən qanun pozuntuları ilə əlaqədar cinayət işi başlanıb. Məlumatı Baş Prokurorluq yayıb. Məlumatda bildirilir ki, bir sıra məktəblərdə Baş Prokurorluq və Maliyyə Nazirliyi araşdırmalara başlayıb. Araşdırma zamanı Suraxanı qəsəbəsindəki 85 və Mərdəkan qəsəbəsindəki 123 saylı orta məktəblərin 2006-cı ildə tikintisi zamanı ciddi qanun pozuntularına yol verilməsi müəyyən edilib.**

85 saylı məktəbin divarlarında çatların olması, sinif otaqlarının bir qisminin döşəməsinin taxtalarının çürüməsi aşkar edilib. Bundan əlavə, layihədə nəzərdə tutulmasına baxmayaraq, su anbarları, ventilyasiya sistemi və sinif otaqlarının döşəmə hissəsində beton təbəqəsi faktiki inşa edilməyib. Araşdırmada müəyyən edilib ki, smeta dəyəri 341 min 965 manat olan 85 saylı məktəbdə iş həcmini «Azərbərpa» MMC 35 min 261 manat şişirdib. 11 min 666 manat həcmində isə iş faktiki görülməyib və həmin pullar mənimsənilib.

123 saylı məktəbin divarlarında da çatların olması müəyyən edilib. Taxta döşəmənin altına beton qatı verilməyib, havalandırma ilə təchiz olunmayıb. 849 min 821 manat smeta dəyəri olan bu məktəbdə isə «Ramil» müəssisəsinin iş həcmini 50 min 359 manat şişirtdiyi bildirilir. Məlumatda qeyd edilir ki, 28 min 793 manat isə mənimsənilib.

Tikinti işlərini həyata keçirmiş «Azərbərpa» MMC və «Ramil» firmasının vəzifəli şəxsləri barəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 179.3.2-ci (külli miqdarda mənimsəmə və israfetmə) maddələri ilə cinayət işi başlanıb.

**TƏHSİL NAZİRLİYİNİN MÖVQEYİ**

Təhsil Nazirliyi Əsaslı Tikinti İdarəsinin sektor müdiri Elman Əzimov deyir ki, Təhsil Nazirliyinin sifarişi ilə inşa edilən məktəblərin hamısı çox yüksək səviyyədə tikilir: « Məktəblərin tikintisində istifadə olunan taxtalar Azərbaycanda istehsal edilmir ki. Məsələn, Rusiyadan gətirilir, gömrükdə keyfiyyəti yoxlanılır. Biz də ondan döşəməyə vururuq. Hər otaqda döşəmədən 1 və ya 2 kvadratmetr yer çürüyüb. Belə hal evdə də olur».

***Vüsalə Əlibəyli***

# Qızıl üstündə yaşayan kəndin uçan məktəbi

**ARIXDAM KƏND MƏKTƏBİ NÖVBƏDƏDİR...**

Bakıda metronun «İçərişəhər» stansiyası yaxınlığında yerləşən 132 və 134 saylı məktəblərin yanından ötüb Prezident Administrasiyası tərəfdə yerləşən 6 saylı məktəbə yaxınlaşıram. İki, üç il olar ki, 132 və 134 saylı məktəblər sökülüb yenidən tikilib. Ötən ilin payızında isə 6 saylı məktəbin binası söküldü və hazırda məktəb üçün yeni bina tikilir. Üstəlik 2000-ci ilin əvvəllərində bu məktəb əsaslı təmirdən çıxmışdı.

Gədəbəyin Arıxdam kənd məktəbi isə yenidən inşa edilmək üçün 2004-cü ildən dövlət proqramında növbəsini gözləyir. Bu kəndin sakini Telman Ələkbərov isə sual edir: «Gözdən-könüldən uzaq olanda camaatla beləmi davranmaq lazımdı?»



**Gədəbəy, Arıxdam kənd məktəbinin sinif otağı**

**QIZIL ÜSTÜNDƏ YAŞAYANLARA HÖRMƏTSİZLİK**

Telman Ələkbərov deyir ki, illərdi onların uşaqları məktəb üçün yararsız binada oxumağa məcbur qalıb. Üstəlik nəzərə almaq lazımdır ki, Azərbaycan hökuməti beynəlxalq şirkətlə birgə bu kəndin ərazisindən qızıl çıxarır. Yəni ayaqları altından qızıl çıxarılan arıxdamlıların uşaqları uçuq-sökük məktəbin ümidinə buraxılıblar. Telman Ələkbərov: «2500 əhalisi olan, torpağının altından qızıl çıxan, üstündə zavod yerləşən bir kəndə bu, hörmətsizlikdir».

Telman Ələkbərov deyir, qızıl istehsalı ilə məşğul olan Beynəlxalq Mədən Əməliyyat Şirkəti yerli camaata söz verib ki, kənddə məktəb, mədəniyyət evi tikəcək. Onun sözlərinə görə, şirkət indi sözünün üstündə durub məktəb tikmək istəyir. Amma: «Amma şirkətə məktəb tikməyə icazə vermirlər».

Telman Ələkbərov deyir ki, yerli rəhbərlik məktəbdə yalnız əsaslı tikinti aparmağa icazə verib, sakinlər isə təmirlə razılaşmırlar: «Çünki 2003-cü ildə təmir işləri aparıldı, amma bir xeyri olmadı, məktəb yenə də uçub töküldü. Məktəb elə vəziyyətdədir ki, sökülüb yenidən tikilməsə, təmirlə ələ gələsi deyil».



**Gədəbəy, Arıxdam kənd məktəbi**

**«ƏSASLI TƏMİRİN NƏYİ PİSDİR Kİ?»**

Gədəbəy Rayon İcra Hakimiyyətinin arxitektura şöbəsinin müdiri Elxan Vəliyev isə AzadlıqRadiosuna deyir ki, söhbət əsaslı təmirdən gedir. Onun deməsinə görə, məktəb tikintisi üçün milyonlarla manat vəsaitə ehtiyac var, şirkət isə yalnız təmir üçün vəsait ayırır: «O şirkətə heç kim sifariş verə bilməz ki, məktəb tik, ya təmir elə. Onlar öz ciblərindən eləyirlər. Əsaslı təmirin nəyi pisdir ki? »

Elxan Vəliyev də deyir ki, təxminən 450 şagirdin oxuduğu Arıxdam kənd orta məktəbi yenidən inşa üçün siyahıya salınıb. Amma növbəsi nə zaman çatacaq, bunu bilmir.

***Səadət Akifqızı***

# Əsgərin boynu niyə sındırılıb?



Foto: Arxiv - Azərbaycan ordusu Orta Asiyada təilmlərdə, 2000

**«DÖYÜBLƏR, BOYNUNU SINDIRIBLAR»**

«Hərbi hissədə vurublar, boynunu sındırıblar. Gətiriblər Bakıya, «Papanin» dəki hospitala. Mənə hərbi hissədən heç bir məlumat vermirlər». Sabirabadın Xankeçən kənd sakini Rizvan Əliyev deyir ki, oğlu İxtiyar Əliyevi xidmət etdiyi Goranboydakı "N" saylı hərbi hissədə əsgər yoldaşları döyüb, boynunu sındırıblar: «Uşağın vəziyyəti ağırdır. Nə görməyə icazə verirlər, nə də bir məlumat vermirlər ki, vəziyyəti necədir. Boğazını deşiblər, süni hava ilə saxlayırlar reanimasiyada. Bildiyimiz odur ki, boyun fəqərəsi sınıb, həkimlər yalnız onu deyirlər ki, əməliyyat etmişik».

İxtiyar Əliyev 2010-cu ilin oktyabr ayında Sabirabad Rayon Hərbi Komissarlığından hərbi xidmətə gedib. Ailə üzvləri onun döyülərək hospitala yerləşdirilməsindən iyulun 16-da - 3 gün sonra təsadüfən xəbər tutublar: «Zəng eləmişəm, komandiri deyib dalaşıblar, boynu sınıb. Onu da özüm zəng eləmişəm, ondan sonra bilmişəm. Yəni hərbi hissə özü məlumat verməyib».

**MÜDAFİƏ NAZİRLİYİ DEYİR ARAŞDIRMA APARILIR**

Müdafiə Nazirliyi mətbuat xidmətinin əməkdaşı Teymur Abdullayev deyir ki, yaralı reanimasiyada olduğundan valideynlərinə onunla görüşə icazə verilmir. Hadisəyə gəlincə isə, Teymur Abdullayev deyib ki, bu barədə açıqlama araşdırma aparılandan sonra verilə bilər.

**TABOR KOMANDİRİ İSƏ DANIŞDI**

Hərbi hissədənsə bir zabit AzadlıqRadiosuna hadisə ilə bağlı bunları dedi:

- Əsgər yoldaşıyla dalaşıb.

**- Cinayət işi qaldırıblar?**

- Qaldırıblar. 15 əsgər aparıblar, iki zabit. Dünən Tərtərin hərbi prokuroru Mehdi Hüseynzadə də gəlmişdi bura, bir nəfər ekspert də gəlmişdi. Hadisə yerini çəkdilər, ölçdülər, biçdilər, getdilər.

**- Niyə dalaşıblar?**

- Bu, çavuş olub. Dediyinə görə, əsgəri acılayıb, söyüb. Əsgər də söyüşü qaytarıb, bir-birləri ilə dalaşıblar.

**- Çavuş hansı olub?**

- İxtiyar.

**- Onu birlikdə döyüblər?**

- İzahat verənlər deyir guya ikisi dalaşıb. Heç kim demir ki, kimsə üstünə düşüb.

**- Boynunu konkret kim sındırıb?**

- Orda yerdə beton plitələr var, yıxılıblar ikisi də onun üstünə. Əliyev İxtiyar yıxılıb, hərbçi yoldaşı da üstünə. Deyir ağırlıq düşüb, ondan olub, mən onu vurmamışam.

**HƏR ŞEY KOMANDİRDƏN BAŞLAYIR**



Üzeyir Cəfərli

Hərbi ekspert Üzeyir Cəfərli deyir ki, hərbi hissələrdə belə hallar komandirlərin əsgərlər üzərindəki nəzarətsizliyindən baş verir: « Belə hallara yol verən komandirlər sərt cəzalandırılsa, yerdə qalanlara da görk olar, onlar da öz vəzifə borclarına məsuliyyətlə yanaşarlar».

Ekspert hesab edir ki, bu nəzarətə ictimaiyyət nümayəndələri də cəlb olunmalıdır. «Doktrina» Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzi müəyyən edib ki, il ərzində Silahlı Qüvvələrdə hərbçilər arasında dava-dalaşla nəticələnən insidentlərin sayı artıb. 2010 və 2011-ci illərdə 10-dan artıq belə hadisə baş verib.

Hadisə baş vermiş Goranboydakı hərbi hissə Bərdə Hərbi Birləşməsinin tabeliyindədir. Bu Hərbi Birləşmənin komandiri general-mayor Nizam Osmanov iyunun 25-də Silahlı Qüvvələr Günü münasibətilə prezidentin sərəncamıyla «Vətən qarşısında xidmətlərinə görə» ordeni ilə təltif edilib.

***Esmira Cavadova***

# Azərbaycan və ABŞ arasında hərbi təlimin vaxtı müəyyənləşib

İyulun 31-də Rumıniyada ABŞ və Azərbaycan hərbiçilərinin birgə təlimi keçiriləcək. Bunu Müdafiə Nazirliyinin Beynəlxalq Əlaqələr və Avroatlantika Əməkdaşlıq İdarəsinin rəisi Ramiz Nəcəfov deyib. Təlimlərdə sülhməramlı əməliyyatların təşkili, planlaşdırılması və həyata keçirilməsi üzrə təcrübə mübadiləsi aparılacaq: «Bu, təxirə salınmış təlimlərin əvəzinə keçirilir. Təlimlər iki həftə davam edəcək. Hər iki tərəfdən 100 hərbçi iştirak edəcək. Bu ilin sentyabrından başlayaraq 2012-ci ilin sonuna qədər Azərbaycan və ABŞ hərbçiləri arasında 50-dən artıq ikitərəfli tədbirlər - seminarlar, təlimlər keçiriləcək.

*Trend*

# Brakonyerlərdən 9 ton balıq, 60 kq qara kürü müsadirə edilib



Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsi bu ilin 6 ayında dəmiryolu, hava və su nəqliyyatında qeydə alınan cinayətlərin statistikasını açıqlayıb. Hesabat dövründə həmin sahələrdə 293 cinayət hadisəsi qeydə alınıb. Onlardan 90-ı narkotiklərlə əlaqədardır. Keçirilmiş tədbirlər nəticəsində 9 kiloqram 850 qram narkotik vasitə aşkarlanıb. Açıqlamada qeyd edilir ki, 81 ekoloji cinayət və 56 inzibati xəta faktı aşkarlanıb. Bu zaman 8 ton 967 kiloqram balıq, 60 kiloqram kürü, 59 qayıq, 182 tor müsadirə edilib.

# «Невероятные» приключения немца в Нахчыване


Центр города Нахчыван

**Глава московского бюро германской газеты Frankfurter Allgemeine Zeitung Михаэль Людвиг надолго запомнит свою поездку в Нахчыванскую автономную республику Азербайджана: «Я поехал туда для того, чтобы написать репортаж о том, как Нахчыван живет в определенной изоляции. На севере и востоке границы заблокированы. Выход есть только в Турцию и Иран. Мне интересно было, как в этой ситуации развивается этот регион.**

Местные власти, Верховный Меджлис Нахчывана, хотел запретить мою работу. А внешнеполитическое ведомство Нахчывана хотело сделать меня на 150% подконтрольным журналистом. Они заставляли меня ждать около 1,5 суток, чтобы решить, могу ли я работать или нет. Мы дошли до того, что шеф этого учреждения сказал мне так: «Ладно, Вы даете список тех мест, которые хотите посетить. Мы решаем, возможно ли это или нет. Но есть одно условие всей Вашей работы – мы выделяем Вам нашего человека и потом можете приступать к своим делам». Он сказал, что это, якобы, для обеспечения безопасности.

Я явился в это учреждение на следующий день. Конечно, меня там никто не ждал. Опять надо было мне ждать. Потом оказалось, что вчерашней договоренности мало. Они хотят, чтобы я написал список всех вопросов, которых хочу задать обычным людям на улице, в деревнях. А также, мне нельзя задавать никаких других вопросов. Я согласился попробовать, можно ли так работать. Мы поехали. Приставленный ко мне человек записывал все мои вопросы и ответы людей, стоя в метре от меня. После этого, он всегда звонил своему шефу с «доклад»ом о моей работе.

Затем произошел такой случай, когда мы остановились по дороге в Садарак. Там к нам подошли двое, которые хотели со мной побеседовать. Я с удовольствием с ними поговорил. Они начали критиковать власти, делая это на русском языке. Потом они перешли на тюркский. Тогда человек, «прикрепленный» ко мне, запретил моему водителю переводить мне сказанное двумя мужчинами на русский язык, так как «это нельзя публиковать». После этого он сказал: «Всё! Дальше Вы будете ездить только в нашем автомобиле и с нашим водителем. Отправьте этого водителя с его машиной домой». Мне пришлось сказать, что такие условия принимать журналист, который работает, как нормальный человек, не сможет.


Хекимэльдосту Мехтиев

Он позвонил своему шефу, доложил ему о произошедшем, и тот начал что-то кричать. Я сказал, что видимо Вы не знаете, что такое свобода прессы. Я так больше работать не смогу.

В работу московского бюро Frankfurter Allgemeine Zeitung входит подготовка репортажей со всего постсоветского пространства. Это к вопросу о том, «что делал российский представитель в Азербайджане». Михаэль Людвиг говорит, что вовсе не обеспокоен случившемся:

«После того, как я выехал из Нахчывана, начались преследования тех самых людей, которые мне помогали, разговаривали со мной. Они нашли Хекимэльдосту Мехтиева (сотрудник Института свободы и безопасности репортеров – ред.) и сказали ему: «Мы тебе отключаем электроэнергию. Это штраф за то, что ты сотрудничал с этим журналистом».

Людвиг даже не скрывает своего удивления положению дел в Нахчыване, делая выводы в результате своих наблюдений и малочисленных контактов с месным населением: «Если ты куда-то едешь и там нет войны, там нормальная жизнь, но в гостинице не хотят возвращать тебе твой же паспорт, то что это за режим? Если тебе торговец рассказывает, что «пришли полицейские шантажировать его, деньги взымать, иначе он и его семья столкнется со страшными проблемами»; а он не в состоянии даже об этом говорить повсюду в Нахчыване - так как боится за свою семью - то что это за режим?

Если люди привозят с Турции картошку, например, прокормить этим свою семью, а таможенники это отбирают, продают на рынке и деньги кладут к себе в карман, то извините меня, что это за режим?»

## Задержан гражданин Армении, подозреваемый в шпионаже

На армяно-грузинской границе был задержан гражданин Армении, подозреваемый в связях со спецслужбами Азербайджана. Как сообщили "Интерфаксу" в Службе национальной безопасности Армении, житель Еревана Карен Меграбян передавал Азербайджану информацию о военном потенциале сепаратистов Нагорного Карабаха и пытался вербовать армянских военных. В отношении задержанного возбуждено уголовное дело по статье "государственная измена".

# Azərbaycanla Türkiyə arasında vizanın ləğvinə İran niyə etiraz edib?


Əli Həsənov

**«Biz Türkiyə ilə viza rejiminin ləğvində problem görmürük. Amma İran buna kəskin etiraz edərək, ona münasibətdə də eyni addımın atılmasını istədi. Əks halda Azərbaycanın Naxçıvanla quru əlaqəsini kəsəcəyinə dair xəbərdarlıqla çıxış etdi». Bunu Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Türkiyənin «Today's Zaman» qəzetinə müsahibəsində deyib.**

Ə. Həsənov bildirib ki, Azərbaycan viza rejimini həm Türkiyə, həm də İrana münasibətdə eyni vaxtda qaldırmalıdır: «Amma hazırkı mərhələdə Azərbaycan hökumətinin hər iki dövlətlə viza rejimini eyni vaxtda ləğv etməyə hazır olduğunu düşünmürəm».

Azərbaycan rəsmisi habelə deyib ki, İran kimi böyük dövlətlə münasibətdə vizasız rejim siyasəti yürütmək hazırkı mərhələdə Azərbaycanın milli maraqlarına uyğun deyil: «İranda siyasi qeyri-sabitlik bizim tərəfə qaçqın axınına təkan verə bilər. Biz isə kiçik ölkəyik və milli təhlükəsizliyimiz barədə yaxşıca düşünməliyik». /apa/

Türkiyə 2010-cu ildə Azərbaycana qarşı viza rejimini aradan qaldırıb.

**ƏLİ HƏSƏNOVDAN DÜZƏLİŞ**

Ə. Həsənov «APA»ya açıqlamasında deyib ki, türkiyəli jurnalist onun sözlərini yanlış anlayıb: «Türkiyəli jurnalistlər viza məsələsini qaldırarkən mən söylədim ki, Azərbaycanla viza rejimini həm Türkiyə, həm də İran ləğv edib. Biz də qarşılıqlı şəkildə viza rejimini ləğv etmək üçün hər iki dövlətə eyni vaxtda təxminən oxşar münasibət bəsləməliyik».

# Antikorrupsiya: bir addım irəli, iki addım geri?



Vasif Mövsümov

**Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov və «Femida» qəzetinin baş redaktoru, hüquqşünas Əyyub Kərimov korrupsiya ittihamı ilə cəzalandırılanların sonradan yenidən vəzifəyə təyin olunmalarına münasibət bildirirlər.**

Vasif Mövsümov:

- «2007-ci ildə Azərbaycanda antikorrupsiya üzrə milli strategiya qəbul olunanda, bütün nazirliklər onun fəaliyyət planını qəbul ediblər. Amma onlar 2007-2011-ci illər ərzində o fəaliyyət planı istiqamətində demək olar ki, heç bir tədbir görməyiblər. Bu məsələ kağız üzərində qalıb. Bir çox nazirliklər korrupsiyaya qarşı mübarizəyə müqavimət göstərirlər. Bunu tam qətiyyətlə demək olar. Onlar addımlar atsaydılar, 2011-ci ildə korrupsiya bu səviyyəyə çatmazdı».

Əyyub Kərimov:

- «Qarpız yeyənlər kənarda qalır, qabıq yeyənlərlə əlaqədar informasiya yayılırdı ki, guya hansısa bir tədbir görülüb və istintaq gedir. Yayılan məlumatlar həmin kampaniyanın əhalini sakitləşdirmək üçün elementlərindən biridir. Ortada niyə ciddi və konkret şəxsə yönələn faktlar yoxdur?...»

**"İşdən sonra" verilişindəki bu söhbəti tam olaraq AzadliqRadiosu.az-da dinləyin.**

**AzadliqRadiosu.az saytında daimi rubrika:**




**Korrupsiya gizlinləri, məmurların rüşvət əməlləri və maliyyə yeyintiləri barədə, həmçinin dövlət rüsumlarının qanuni miqdarları haqda AzadlıqRadiosunun daimi rubrikası olan "Korrupsiometr"də oxuyun.**



# Araz Əzimov: «Azərbaycan Ermənistanda Rusiya hərbçilərinin olmasından narahatdır»

«Azərbaycan Ermənistanda Rusiya hərbçilərinin olmasından narahatdır». Bu sözləri Azərbaycan Xarici İşlər nazirinin müavini Araz Əzimov «Exo Moskvı» radiosuna müsahibəsində deyib. Onun fikrincə, Rusiya Cənubi Qafqazda militarist mövcudiyyətdən iqtisadi mövcudiyyət konsepsiyasına keçməlidir:«Təəssüf ki, Rusiya Ermənistanda silahlı qüvvə saxlamağı önəmli sayır. Biz Cənubi Qafqazda bu cür militarist mövcudiyyətə getdikcə daha az əsas olduğunu görürük. Tankları tankerlərlə dəyişməyin, hərbi formanı iqtisadi mövcudiyyətlə əvəzləməyin vaxtı çatıb».

A. Əzimov bildirib ki, Ermənistanı danışıqlar prosesindəki konstruktiv təklifləri qəbul etməyə inandırmaq Rusiyanın öz marağındadır.

***Apa***

# Nikahlar və boşanmalar artıb

2011-ci ilin 6 ayı ərzində Azərbaycanda 39803 nikah bağlanıb. Əcnəbilər və vətəndaşlığı olmayanlarla nikahların sayı 792 təşkil edib. Bu barədə «APA»ya Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidmətinin rəisi Reyhanə Kərimova bildirib.

İlin ilk yarısında ölkədə 5335 nikahın pozulması halı qeydə alınıb. Onlardan 19-u əcnəbilər və vətəndaşlığı olmayanlarla olan nikahlara aiddir. R. Kərimova bildirib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə nikahların və boşanmaların sayı artıb.

2010-cu ilin ilk 6 ayında nikahların sayı 32681, boşanmaların sayı 4276,

2011-cı ilin ilk 6 ayında isə nikahların sayı 39803, boşanmaların sayı 5335 olub.

# Hacıqabul-Kürdəmir yolu: 70 milyon + 352 milyon

**Hacıqabul-Kürdəmir yolu yenidən qurulacaq. Bu layihənin maliyyələşdirilməsinə dair Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Çexiyanın «Komercni banka A.S.» bankı arasında kredit müqaviləsi imzalanıb. Kredit müqaviləsini Azərbaycanın nəqliyyat və maliyyə nazirləri, Çexiya tərəfdən isə «Komercni banka A.S.» bankının vitse-prezidenti imzalayıb.**

**352 MİLYONLUQ LAYİHƏ**

Nəqliyyat Nazirliyindən verilən məlumata görə, layihə 352 milyon ABŞ dolları dəyərindədir. Layihədə Azərbaycan hökumətinin payı 15% müəyyən edilib və avans şəklində tranşlar üzrə 3 bərabər hissə ilə ödənilməlidir. Layihənin məqsədi Hacıqabul-Kürdəmir 2 zolaqlı avtomobil yolunda əlavə 2 yol zolağının tikintisi və yenidən qurulmasıdır. Qeyd edək ki, beynəlxalq əhəmiyyətli Bakı-Qazax avtomobil yolunun bir hissəsi olan Hacıqabul-Kürdəmir yolunun ümumi uzunluğu 85 kilometrdir.




Azər Mehtiyev

**YENİDƏNQURMANIN SƏBƏBİ AÇIQLANMALIDIR**

İqtisadçı-ekspert Azər Mehtiyev deyir ki, indiyədək hökumət qurumlarının həmin yolun yenidən qurulmasının hansı zərurətdən irəli gəldiyi barədə heç biri açıqlama verməyib: «Həqiqətən də yol yenidən qurulandan sonra onların genişləndirilməsinə ehtiyac yaranır. Özü də təkcə Hacıqabul-Kürdəmir yolu deyil, Azərbaycanda bir çox yollar haqda belə qərarlar qəbul olunub».

Ekspert əlavə edir ki, bir halda ki, müqavilə nazirliklər tərəfindən imzalanır, deməli, bütün hallarda gələcəkdə bu borcun ödənilməsi dövlətin üzərinə düşür.

**HƏLƏLİK RƏSMİ İZAH YOXDUR**

Çexiya bankı ilə müqaviləni imzalayan qurumlardan məsələyə aydınlıq gətirmək cəhdlərimiz nəticə vermədi. Azadlıq Radiosu «Kommercni Banka»ya sorğu ilə müraciət etdi ki, Nəqliyyat Nazirliyinə nə qədər kredit verilib? Neçə illiyə? İllik faiz nə qədərdir? Ancaq «Kommercni Banka» nədənsə bu sadə və sirr olmayan suallara cavab verməyə istəmədi. Bankın Xarici Kommunikasiya Xidmətinin rəhbəri Monika Klucovanın radioya yazdığı cavabda bunu bank etikası və məxfiliyi ilə izah edir.

Ancaq kreditin miqdarında və faizində nə məxfilik var? Bank nəyi gizlədir?Bəlkə 85 km-lik yolda iki əlavə xəttin çəkilməsinə niyə 300 milyon dollar verildiyini iqti-



sadi əsaslandırmaq olmayacaq?

ABŞ -da əlverişli torpaqda 1 km yolun çəkilməsi təxminən 1 milyon dollardır. Düzdür, yol qayalıqdan və s. bu kimi maneələrdən keçəndə, qiyməti qalxır. Ancaq Hacıqabul-Kürdəmir yolunda nə problem var ki, qiyməti bu qədər yüksəkdir?

**VAXTİLƏ BU YOLA 70 MİLYON XƏRCLƏNİB**

Əsasən avtomobil yollarının və dəmir yollarının tikintisi istiqamətində fəaliyyət göstərən «Azərinşaatservis» MMC –nin internet saytında 2007-ci ilin 24 dekabrında yerləşdirilən məlumatda həmin gün Bakı-Qazax avtomobil yolunun Hacıqabul-Kürdəmir hissəsinin açılış mərasimi olduğu vurğulanır. Bildirilir ki, Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyələşdirdiyi bu yolun yenidənqurma işlərinə 70 milyon ABŞ dolları həcmində pul ayrılmışdı. 2005-ci ilin iyun ayında başlayan yenidənqurma işləri 2007-ci ilin dekabr ayında başa çatdırılıb».

***İlqar Rəsul***

# Qızılın qiyməti rekord səviyyəyə qalxıb

Qızılın qiyməti rekord səviyyəyə çatıb, unsiyası artıq 1600 dollar civarındadır. Bu, Avropada və Amerikada maliyyə böhranının dərinləşəcəyi, dollar və avronun dəyərdən düşəcəyi ilə bağlı qlobal narahatlığa işarədir. Televiziyada istənilən biznes proqramına baxsan, hər birinin əsas mövzusunun qızılla bağlı olduğunu görmək olar:

- Qızıl bu gün daha 12 dollar bahalandı, 1600 dolları vurub keçdi. Hələ rekordun təzələnəcəyini ehtimal etmək olar. Bu, çox heyrətamizdir. Bu nədir belə? Qızılın rekordunu qaldıran nədir?

Baxmayaraq ki, qızılın qiyməti qalxır, amma o, hələ 1980-ci ildəki rekord həddə çatmayıb. O vaxt qızılın unsiyası 850 dollara, valyutanın indiki alıcılıq qabiliyyəti ilə 2500 dollara olub.

Qızıl keçən onillik boyunca dünyanın ən önəm verilən malı olub, amma bugünkü dalğanın coşmasına iki amil səbəb olub: birincisi, ABŞ-ın demokratlar və respublikaçıların maliyyə məsələləri ilə bağlı danışıqları çıxılmaz vəziyyət yaradıb, avqustun 2-də ən pis ssenari baş verə bilər: hökumət müflis ola bilər. İkincisi, Avropa liderləri Yunanıstanda və digər avrozona ölkələri İtaliya, İspaniya və İrlandiyada borc böhranını aradan qaldırmaq üçün mübarizə aparırlar. Hər iki vəziyyət sərmayəçiləri narahat edir ki, dünyanın hər iki güclü valyutası - dollar və avro öz



dəyərini itirə bilər və ona görə də qızıla diqqətləri artıb. Başqa qiymətli metalların qiyməti də qalxıb. İyulun 18-də Nyu-Yorkda gümüş 40.52 dollara satılıb, bu, onun may ayından bəri ən yüksək qiymətidir.

***Səadət Akifqızı***

# «Elçibəyin yanından qayıdarkən yolda güllələndi»



Şahmərdan Məhəmməd oğlu Cəfərov 1958-ci ildə Şərur rayonunun Məmmədsabir kəndində doğulub. Rusiyanın Kaluqa şəhərində hərbi xidməti bitirəndən sonra orada qalaraq orta ixtisaslı hüquq məktəbini bitirib, milis sıralarında çalışıb. 1988-ci ildə Azərbaycana qayıdıb. 1988-ci ildə Şərur özünümüdafiə batalyonunun komandiri, 1992-ci ildə Qıvraq polkunun komandiri, 1992-ci ildən 1994-cü ilə qədər Azərbaycan Respublikası Sərhəd Qoşunları İdarəsi 1 saylı Naxçıvan Sərhəd Dəstəsinin komandanı vəzifəsində çalışıb. Rütbəcə mayor olub.

**AzadlıqRadiosunun suallarına keçmiş millət vəkili Şahmərdan Cəfərovun qardaşı Hüseynqulu Cəfərov cavab verir.**

**"BİR ÇAMADAN QIZIL"**

- O, vətəni, milləti çox sevirdi. Eşidəndə ki, ermənilər haradasa bizimkilərdən girov götürüblər, bütün vasitələrdən istifadə edib, onları azad etməyə çalışırdı. 1992-ci ildə Ermənistan Dərman Fermentasiya İdarəsinin rəisinin qızını Sədərəkdə əsir götürmüşdü. Şahmərdan evə gəlib dedi ki, həmin əsiri azad etmək üçün ermənilər ona Moskvadan zəng edərək, bir çamadan qızıl təklif ediblər. Şahmərdan bundan imtina edib, erməni əsirin azad olunması əvəzində Xocalıda girov götürülən azərbaycanlı qadınlardan 10 nəfərinin geri qaytarılmasını tələb edirdi. Uzun danışıqlardan sonra ermənilər bu tələblə razılaşmışdılar. Həmin ərəfədə yerli rəhbərliyin tələbi ilə erməni əsir Naxçıvan Muxtar Respublika Müdafiə Komitəsinə təhvil verildi. Bundan sonra həmin əsirin taleyindən xəbərimiz olmadı.

**HEYDƏR ƏLİYEVLƏ MÜNASİBƏTLƏRİN KORLANMA SƏBƏBLƏRİ**

Hüseynqulu Cəfərov Şahmərdan Cəfərovun siyasi baxışlarını isə belə xarakterizə edir:

- AXC-nin fəallarından idi. Elçibəyi özünə ideal sayırdı. Onun yolunda canından keçməyə hazır idi. Heydər Əliyevlə də əvvəllər münasibətləri yaxşı olub. Sonra soyuqluq yarandı aralarında. Soyuqluğun bir sıra səbəbləri var idi. Şahmərdan bu səbəblər barədə evdə də tez-tez danışırdı.

Sədərək kəndi üçün mühüm əhəmiyyət kəsb edən Miltəpə postunun geri alınması planına Heydər Əliyev qarşı çıxmışdı. O vaxt Bakı Siyavuş Mustafayevi Naxçıvan Muxtar Respublika Daxili İşlər naziri təyin edəndə Şahmərdan bu qərarı dəstəkləyirdi, Heydər Əliyev isə qərara qarşı idi. Belə yarandı aralarındakı soyuqluq. Soyuqluğa səbəb olan elə məsələlər də var idi ki, indi onları danışa bilmərəm.

**"O, ELÇİBƏYƏ XƏYANƏT EDƏ BİLMƏZDİ"...**

*- Eşitdiyimizə görə, ona müdafiə naziri postu təklif edilmişdi. Bu, doğru idi?*

- Bəli, 1993-cü ildə Heydər Əliyev Bakıya gedəndən sonra Şahmərdana müdafiə naziri postun təklif etdi. O, təklifi rədd etdi, Elçibəyə xəyanət edə bilməzdi. Sonra ondan tələb etdilər ki, Sərhəd Qoşunlarından istefa versin. Bu məqsədlə Şahmərdana bir neçə dəfə sui-qəsd də təşkil olundu. Sonda hakimiyyətin apardığı siyasətə etiraz olaraq Şahmərdan vəzifəsindən istefa verdi.

1994-ün avqustunda Şahmərdan və onun silahdaşlarına qarşı qanunsuz silahlı dəstə ittihamı ilə cinayət işi açıldı. Həmin ilin dekabrında artıq, parlamentdə Şahmərdanın həbs olunmasıyla bağlı fikirlər səsləndirilməyə başladı. 1995-ci ilin may ayının 18-də artıq, spiker səviyyəsində bu məsələ gündəliyə gətirildi. Təklif bir neçə dəfə səsə qoyulsa da, səs çoxluğu alınmırdı. Elə həmin gün Şahmərdan evi tərk etdi. Bir də cənazəsi qayıtdı.

**"ŞAHMƏRDAN ORADA 5 GÜLLƏ YARASI ALIB"...**

- Bəs harada qalırdı? Artıq sərhəd qoşunlarının komandiri də deyildi...

- Evdən çıxandan sonra ən çox Culfada və Ordubadda Elçibəyin yanında olub. Nəhayət, 30 mayda parlamentdə həbsiylə bağlı qərar qəbul edildi. 17 iyunda səhər tezdən Şahmərdan özünün Niva maşınında Kələkidən qayıdarkən Bənəniyar kəndində Culfa rayon polis bölməsinin əməkdaşları tərəfindən yolda güllələnib. Maşında əlavə üç nəfər də olub. Onlar deyirdi ki, polislər xəbərdarlıq etmədən Şahmərdanı güllə yağışına tutublar. Şahmərdan orada 5 güllə yarası alıb. 4 saat yaralı vəziyyətdə qaldıqdan sonra Naxçıvan DİN polisləri gəlib onu həbs ediblər. Daha sonra xəstəxanaya aparıblar. Xəstəxananın ətrafını polislər mühasirəyə almışdı, heç kimi yanına buraxmırdılar. Həkimlərin səyi nəticəsində bir həftə sonra Şahmərdan ayağa qalxdı. İyunun 26-da onu yaralı vəziyyətdə Bakıya - Şüvəlan türməsinə apardılar. Ayın 29-na kimi türmədə ona ağır işgəncələr veriblər. Bu haqda bizə oradakı dustaqlar deyib. İyunun 29-u səhər tezdən onu xəstəxana adı ilə türmədən çıxarıb, yük maşınında axşama kimi şəhəri dolandırblar. Məqsədləri o olub ki, Şahmərdan ölsün. Axşam xəstəxanaya gətirilib, bir neçə saatdan sonra vəfat edib. Şahmərdan əqidəsindən dönmədiyinə görə qəsdən öldürüldü. Həm də Şahmərdanın nüfuzundan çəkinirdilər.



Şahmərdan Cəfərov əsgərlərə baxış zamanı, 1992-ci il

***Yafəz Əkrəmoğlu***

# Gəncədə zorla gözəllik...


«Hərə gəlir bir «zakaz» verir. Bilmirəm işçinin pulunu verək, ya ustaların, materialın?»

**«Birinin alçipan zavodu var, deyir mağazanın üzünü alçipan elə, biri deyir üzlük daş, mərmər vurdur. Bankdan pul götürüb alçipan vurdurmuşduq. Onun borcunu ödəyə bilmirik, təzə gələn başçı deyib ki, üzlük daş vurdur. Bundan sonra gələn deyəcək bu pisdir, sök başqa üzlük vurdur. Ailəmizi dolandıra bilmirik. Əlimizdəki pulu da tökürük tikintiyə. Banka borcumuz var. Qalmışıq belə». Bu sözləri Gəncədə kaset və disk satışı ilə məşğul olan 28 yaşlı Surxay Namazov deyir. Deməsinə görə, elə də böyük olmayan mağazasından götürdüyü gəlirdən çox, onun təmirinə xərc çəkir.**

**HƏR SAHİBKAR 1000-3000 MANAT ARASI XƏRC ÇƏKİR**

Adının çəkilməsini istəməyən başqa bir sahibkar isə deyir ki, təzə icra başçısı gələn kimi memarlıq idarəsinin nümayəndələri ona birmərtəbəli olan obyektinin 2-ci mərtəbəsini tikmək göstərişi verib. Bu tikinti işi və üstəgəl binanın üzünün daşla bəzədilməsi ona 2400 manata başa gəlib. Gəlin donlarının satışı və kirayəsi ilə məşğul olan obyekt sahibi də deyir ki, üzlük daş bahalı olduğundan binanın təmirinə 800-1000 manat xərcləyiblər: «Deyəndə ki, imkan yoxdur, deyir mağazanı bağla, ya da ver pulu olan adam eləsin. Allah bilir, bir azdan gəlib deyəcəklər ki, bunu da sök, ayrı üzlük vurdur».

**AYRILAN VƏSAİT HEÇ KİMİ MARAQLANDIRMAMALIDIR**

Gəncə şəhərinin baş memarı Allahverdi Əliyevə görə isə, sahibkarlara şərait yaradılır ki, obyektlərini böyüdüb daha çox pul qazansınlar:

- Şəhər abadlaşdırılır, gözəlləşdirilir. Bu, həm gözəllik üçündür, həm də o insanlara imkan yaradılır ki, öz fəaliyyətini genişləndirsin. Xərc çəkirsə, qoy bu adam da qazansın, şəhər də qazansın, memarlıq da. Tikinti gedirsə, onun fəsadı müəyyənləşir. Gəncədə kərpic əsas memarlıq üslubu olduğundan o stili saxlayırıq.

**- Bu işlər şəhərin abadlaşdırılmasına ayrılan vəsaitlə edilir?**

- Vəsait nə sizi maraqlandırmalı deyil, nə də məni.

**- Amma ictimaiyyəti maraqlandırır axı?**

- O vəsaitlə bu qədər iş görmək olarmı ki? Sahibkarın obyektini niyə icra hakimiyyəti təmir etməlidir axı? Ona biz şərait yaradırıq, layihə çəkib veririk, deyirik tik, üstündən 2 mərtəbə artır.

Korrupsiyaya qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov isə deyir ki, obyektlərin təmiri və şəhərin abadlaşdırılması regionların inkişafına dair Dövlət Proqramına daxildir. Onun fikrincə, bunun üçün dövlət büdcəsindən külli miqdarda vəsait ayrılıb:

**«SAHİBKARLARI DÖVLƏT SİYASƏTİNDƏN NARAZI SALIRLAR»**

«Bu vəsaitlər abadlığa ayrılıb və xərclənməlidir. Dövlət başçısı dəfələrlə çıxışlarında bildirib ki, ayrılan vəsaitlərin xərclənməsinə dövlət nəzarəti, ictimai nəzarət olmalıdır. Sahibkarların məsələsi daha da faciəlidir. Sahibkarın işinə müdaxilə edir icra hakimiyyəti. Sahibkarları dövlət siyasətindən narazı salırlar».

***Gülnur Raqifqızı***

AzadliqRadiosu.az saytında daimi rubrika:




**Problemlərinizi, şikayətlərinizi AzadlıqRadiosunun "Qaynar Xətt"inə çatdırın:**

**Telefon: (+99412) 436-77-41**
**SMS: (+99450) 744-10-17**
**E-mail: efir@azadliqradiosu.az**
**azadliq@rferl.org**


Naxçıvanda iməcilik, 2007

# Naxçıvanda elm adamları nədən küçə süpürür?

**«40 DƏRƏCƏ İSTİNİN ALTINDA AXŞAMA KİMİ İŞLƏDİRLƏR»**

Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə və müəssisələrdə çalışanların istirahət hüququnun pozulmasından şikayətləri var. Vaxçıvan sakini Qasım Hüseynov deyir ki, Naxçıvanda iməcilik məcburidir və bundan boyun qaçıranları ya işdən çıxarırlar, ya da ki, başqa cür cəzalandırırlar: « Kimi yolların qırağını süpürür, kiminə tikan yoldururlar, alaq elətdirirlər. Mən çalışdığım idarənin işçilərini isə hər həftə çuğundur sahələrinə aparırlar. 40 dərəcə istinin altında axşama kimi işlədirlər. Həmin çuğundur sahələri bir qrup məmurundur. Artıq bezmişik. Sovet dövründə də iməcilik var idi. Ancaq ildə bir dəfə. Hər həftə də iməcilik olar?».

Bu şikayətlərə münasibət öyrənmək üçün Naxçıvan Muxtar Respublikasının Bakıdakı nümayəndəliyi ilə əlaqə saxladıq. Nümayəndəliyin rəhbəri Həsən Hacıyev deyilənləri təkzib etdi. Naxçıvanda fəaliyyət göstərən hüquq müdafiəçisi Elman Abbasov isə muxtar respublikada dövlət büdcəsindən maliyyələşən idarə və müəssisələrdə işləyənlərin iməciliklərə cəlb olunmasını adi bir prosesə çevrildiyini deyir:

**«AKADEMİKİN YOL KƏNARINI SÜPÜRMƏSİ...»**

« Hətta akademiklər, müəllimlər, həkimlər də cəlb olunur bu iməciliklərə. Bəzən olub ki, xəstəxanalara ağır xəstələr gətirilib, həkimlər iməcilikdə olduğundan saatlarla həmin xəstələrə yardım göstərən tapılmayıb. Akademikin, müəllimin, həkimin yol kənarını süpürməsi, yol qırağındakı ağacların dibini açması nə məntiqə, nə də qanuna sığır».

***Yafəz Əkrəmoğlu***

# Flora Kərimova: «İmkanım olsaydı... həyatımı korreksiya edərdim!»

**«Axır vaxtlar özümə mahnılardan tumar tutmuşam». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına yubiley yaşını qeyd edən Flora Kərimova söylədi. Dedi ki, son vaxtlar təzə mahnılar yazdırmağa meyili artıb:«Dünən «Next» qrupu ilə gözəl bir mahnı yazdırdım. Məndən çıxmayan iş! Elə bir diringili mahnı çıxdı ki! Tam müasir...**



Flora Kərimova, 20 iyul 2011

**70 İLİM MƏNİM ÜÇÜN BÖYÜK QAZANCDIR**

AzadlıqRadiosunun «Yubiley görmək yəqin ki, böyük xoşbəxtlikdir. Hansı ovqatdasınız» sualına cavabında Flora xanım bunları söylədi: «Bilmirəm xoşbəxtlikdir, ya yox? Amma hər ilim—70 ilim mənim üçün böyük bir qazancdır. Ağrılı, sözlü-söhbətli, çox suallı, narazılıqlı, Tanrı ilə savaşlı... Bütün bunlara baxmayaraq, yaşadığım illər mənim qazancımdır. Çünki mənim istədiyim adamların yanında olmaq, övladlarımı böyütmək imkanım olub, onların xoş günlərini görmək qismətim olub. İndi bircə arzum qalıb—qız nəvəmi görmək».

**TALEYİM QƏRİBƏDİR...**

Müharibənin başlanmasından bir ay sonra doğulduğunu söyləyən Flora xanım bu tarixin artıq bir işarə demək olduğunu iddia etdi: «Müharibə 45-də qurtardı, amma mənim müharibəm indiyə qədər davam edir! Deyirlər ki, bu da bir işarədir həyatda. Bakıda—o vaxtlar Krupskayanın adını daşıyan xəstəxanada doğulmuşam. Elə oldu ki, qızım da orda dünyaya gəldi. Düzdür, doğum şəhadətnaməmdə Qəbələ yazılıb. Amma mən nəslimizin Bakıda doğulan ilk ziyalılarındanam».

**İMKANIM OLSAYDI... HƏYATIMI KORREKSİYA EDƏRDİM**

Flora xanım imkanı olsaydı, həyatını korreksiya (müəyyən düzəliş) edəcəyini də istisna etmədi: «Əvvəllər o korreksiyaya da yaxın durmurdum. Deyirdim yox, təzədən yaşayardım. Ancaq o həyatı təzədən yaşamaq zordur! Çox zordur!».

«Bəs nəyi korreksiya edərdiniz» sualını belə cavablandı: «Qüdrətim çatmır deyə, hansı anları edərdim fikrində də olmamışam. Amma eləyərdim... Məni yandıran, kürəyimi qovuşduran, başımdan tüstü çıxaran anlarımı, dözümsüz anlarımı... Nə yaxşı ki, gündüzlə növbəti gündüz arasında gecə var idi. O gecə olmasaydı, insan səhərə azacıq ümidlə oyanmazdı».

**YUBİLEY KONSERTİ... OLMAYACAQ**

Flora xanım bir dinləyicinin «Yubiley konserti olacaqmı» sualını belə cavabladı:

«Ay sizə qurban olum, kimdir mənə yiyə duran? Adım çəkiləndə, keçmiş siyasi fəaliyyətimə görə hamı məndən qaçır. Yuxarılarda hamı mənim mahnılarımı sevir. Görəndə, münasibətlərini bildirirlər. Amma yaxınlaşmağa qorxurlar ki, deyərlər siyasətçi Floraya baş qoşub. Keçmişimi bağışlayırlar, amma addım atmağa qorxurlar. Mən də elə bir durumda deyiləm ki, yaşadıqlarıma görə üzr istəyəm».

**• Flora xanım öz səsindən nələr danışdı? Səsinin tembrini necə təhlil etdi?**

**• Hansı şöhrətli bəstəkarın «sənin səsindən yoxdur» sözünü ilk dəfə dilə gətirdi? Kimə təşəkkür etdi, kimə Allahdan rəhmət dilədi?**

**• Öz uşaqlığından nə danışdı?**

**• Flora xanımın arzulanmaz uşaq olduğunu desəm, inanarsınızmı? Atası niyə qızının dünyaya gəlişini istəmirdi? Anası niyə onu bətnində yox etmək istəyirdi?**

**Sevimli müğənnini öz dilindən eşitməyin ayrı ləzzəti var. AzadliqRadiosu.az-da «Can Bakı» verilişini dinləyin.**

***Sevda İsmayıllı***

# Putinin qızlar ordusu...

**İnternetdə sosial şəbəkələrdə peyda olan bir dəstə qız Rusiyanın Baş naziri "Vladimir Putin üçün hər şeyi parçalamağa" hazır olduqlarını bildirirlər. Özlərini "Putinin ordusu" adlandıran qızlar bildirirlər ki, bu aksiya ilə Putini hər kəsin, o cümlədən də gözəl, gənc və ağıllı qızların dəstəklədiyini nümayiş etdirməyə çalışırlar: "Biz bir məsələdə həmfikirik ki, Putin layiqli, təmiz siyasətçi və ecazkar kişidir. Hədəfimiz Putinin prezident olmasıdır."**


"Putinin ordusu"ndakı qızlardan biri

Amma sosial şəbəkələrdə artıq onların əleyhdarları da qruplar formalaşdırırlar. Onlar hesab edirlər ki, bu normal aksiya deyil. Əks düşərgə hesab edir ki, belə aksiyalar əslində Putinin normal seçkidə qalib gəlməyə imkanının olmadığını göstərir.

# Azərbaycan qızıl və gümüş istehsalını artırıb

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda 891 kq qızıl hasil edilib ki, bu da 2010-cu ilin eyni dövrünə nisbətən 0.5% çoxdur. Bununla yanaşı, hesabat dövründə ölkədə 769 kq gümüş hasil edilib ki, bu da ötən ilin yanvar-iyun aylarına nisbətən 48.5% çoxdur. Məlumatı Dövlət Statistika Komitəsi yayıb. Cari ilin iyulun 1-nə Azərbaycanda istehsalçılarda qızılın hazır məhsul ehtiyatı 57 kq, gümüşün ehtiyatı isə 58 kq olub. Qızılın 1 unsiyasının (31.1 qram) qiyməti hazırda dünya bazarlarında 1582 ABŞ dollarına, gümüşün 1 unsiyası isə 39 dollara bərabərdir.

***Apa***

# Şair üç övladı ilə Yazıçılar Birliyində aclıq aksiyası keçirdi


Şaiq Vəli

*Şair Şaiq Vəli ilə əldən-ayaqdan uzaq – heç ünvanı da bəlli olmayan, sadəcə, Sumqayıtın keçmiş stansiyası kimi tanınan bir yerdə, yan-yana qeyri- qanuni tikilmiş evlərdən birində görüşürük. Deyir özünə məxsus olmayan təmirsiz, tavanı uçuq-sökük, divarları çat olan bu evdə yaşayır. İllər öncə 5 ay ərzində bir oğlunu orduda, digərini isə avtomobil qəzasında itirən şair ikinci dəfə ailə həyatı qurub. İndi 3 azyaşlı uşağı var. Amma özünün dediyinə görə, həyat onu indi də çörək imtahanına çəkir: «5 ilə yaxındır ki, işsizəm. Yazıçılar Birliyinə, birinci xanıma və prezidentə müraciət etmişəm. 25 ildir ki, Yazıçılar Birliyinin mənzil növbəsindəyəm, indiyədək ala bilməmişəm. İş üçün dəfələrlə müraciət etmişəm. Mən yaşda adamı başqa yerə, məsələn, tikintiyə işə götürmürlər. 61 yaşım var artıq.*

Kasıb güzəranından, pulsuzluqdan bezən şair iki gün – iyulun 19-20-də 3 azyaşlı balası ilə birlikdə Yazıçılar Birliyinin binasında aclıq aksiyası da keçirib. Hər gün evdən çıxanda fikirləşirəm ki, görəsən hansı mərhəmətli dost 5 manat verəcək ki, uşaqlarıma iki gün çörək ala bilim. Sovet dövründə işləməyən yazıçı qonorarla dolana bilirdi. İndi qonorar deyilən şey də yoxdur. «Ulduz» jurnalında çıxan 17 şeirimə görə 27 manat pul almışam». Şaiq Vəli isə bir neçə gün gözləmək qərarına gəlib. Deyir ki, müsbət bir nəticə görməzsə, bundan sonra da aclıq aksiyası keçirəcək, ölkə başçısına bir daha müraciət ünvanlayacaq.

***Ülkər Akifqızı***

# Bekhemin bir sözü romanın satışını iki dəfə artırdı


Devid Bekhem və həyat yoldaşı Viktoriya

*Futbol ulduzu Devid Bekhemin bir sözü 1960-cı ildə çap edilmiş romanın satışını iki dəfə artırıb. O, Facebook səhifəsindəki qeydlərində yenicə doğulan qızına niyə Harper adı qoyduğunu izah edib. Futbolçunun yazdığına görə, əvvəla bu, qədim ingilis adıdır və bu ad onun da, həyat yoldaşı Viktoriyanın da xoşuna gəlir. İkinci səbəb isə odur ki, Viktoriyanın sevimli kitablarından biri "Lağ edəni öldürmək"dir. Həmin kitabın müəllifi isə amerikalı qadın yazar Harper Lidir.*

85 yaşlı Harper Li 1960-cı ildə yazdığı "Lağ edəni öldürmək" romanına görə Amerikanın ən yüksək mükafatlarından olan "Pulitzer"ə layiq görülüb.Vaxtilə roman əsasında film də çəkilib və Oskar mükafatına layiq görülüb.

# AzadlıqRadiosu şeir müsabiqəsi keçirəcək

AzadlıqRadiosunun ədəbiyyat portalında – "Oxu zalı"nda şeir müsabiqəsi keçiriləcək. "Ədəbi Azadlıq-2011" şeir müsabiqəsinin sentyabrda başlanması planlaşdırılır. Builki "Ədəbi Azadlıq" hekayə müsabiqəsi kimi bu şeir müsabiqəsi də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr ediləcək. Amma hekayə müsabiqəsində olduğu kimi, şeir müsabiqəsində də iştirakçılardan dar bir mövzuda əsər tələb edilmir. Müsabiqədə 2 əhatəli nominasiya üzrə mükafatlar nəzərdə tutulub. Şərti olaraq bunları - ictimai-siyasi və lirik mövzular kimi bölmək olar.

Qaliblər üçün pul mükafatları nəzərdə tutulur. Müsabiqənin başlanma vaxtı, qaydaları, münsiflər heyəti haqda yaxın həftələrdə məlumat verəcəyik.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Rövşən Qəmbərov: **Rafiq Tağının Orxan Pamuku sevməməsinin 3 səbəbi**


**Pərviz Cəbrayıl Anarın təbrikini necə qarşıladı?**


**Elif Şafak yeni roman yazıb**



**Dünyaca məşhur roman - ilk dəfə Azərbaycan dilində**


**Xuraman Hüseynzadə. Qadın**

# İrana nikahsız ərə getməyin fəsadları

**«Qonşum olan bir qadınla İrana getdim. İranda bir evdə olduq. Evin sahibi ilə tanış oldum. O, mənə evlənməyi təklif etdi. Məndən xoşu gəldiyini dedi. Evə döndüm. Üç gündən sonra mənə zəng edib bildirdi ki, elçiliyə gəlmək istəyirlər».**

Bu sözləri Astara şəhərinin şərti olaraq Leyla adlandırdığımız bir sakini deyir. O, AzadlıqRadiosuna müraciət edən artıq 5-ci qadındır ki, İran İslam Respublikasının vətəndaşına ərə gedərək bir müddət sonra boşanıb geri qayıdıb. Leyla deyir ki, bu söhbətdən sonra anası və qardaşlarının razılığı əsasında həmin İran vətəndaşı Tərtərdən olan iki dostu ilə onlara elçiliyə gəlir. Beləliklə, onun İran vətəndaşı ilə evlənməsinə razılıq verirlər.

Leylanın deməsinə görə, İrana, ər evinə gələndən sonra müsibətli günləri başlayır. O, qeyd edir ki, hər 15 gündən bir Azərbaycana qayıdıb pasportunda qeydiyyat aparmalı olub. Bununla da məlum olub ki, onun evlənməsi ilə əlaqədar heç bir sənədləşmə getməyib:

**«ƏRİM İLK GÜNDƏN MƏNİ DÖYMƏYƏ BAŞLADI»**

«İrana qayıdanda başımı bağlayırdım, rüpüş geyirdim. Bunsuz İranda bir addım atmaq olmaz. İranda ər evində cəmi 7 ay qala bildim. Ərim



Tehranda toy mərasimi

ilk gündən məni döyməyə başladı. Təhqir edirdi, söyüş söyürdü, işgəncə verirdi... Dözə bilmirdim. Məni heç yerə buraxmırdı. Evdə işləyirdim, evdə təmizlik işlərini görürdüm, oğlunu saxlayırdım. Başa düşdüm ki, belə getsə, məni burda öldürəcək. Şikayət etmək üçün yer tapa bilmirdim. Qeydiyyatda olmadığıma görə heç yerə şikayət edə bilmirdim. Qızlarımıza demək istəyirəm ki, əcnəbilərə ərə gedənlər ehtiyatlı olsunlar, onların şirin sözlərinə inanmasınlar. Orda qızlarımıza zülm edirlər, onlara nökər kimi baxırlar».

Leylanın anası deyir ki, İrandan elçi gələndə buna sevinib. Leyla bir dəfə ərə getmişdi, əri narkoman olduğu üçün ondan boşanmışdı. Ananın bildirdiyinə görə, təkcə Astara rayonundan 100-dən çox qız İranda ərdədir:

**«BAŞQALARININ SÖZLƏRİNƏ BAXDIM»**

«Gələn iranlı da dedi ki, qızı əl içində saxlayaram. Dedim nikah edək. Dedi öz ölkəmdə edərəm. Astaradan olan Əsli Ağayeva adlı qadın məni aldatdı. Astara və Lənkərandan İrana gedən qadınlar onun evində qalırlar».

**«BİLİRDİ Kİ, ŞİKAYƏT ETMƏYƏCƏYƏM»**

Leyla deyir ki, İranda kişilər arvadlarını boşaya bilmirlər. Arvadın razılığı olmadan bu mümkün deyil: «Buna görə də mənə zülm edirdi. Bilirdi ki, şikayət etməyəcəyəm».

Vəkil Novruz Hacızadə də bu məsələdə əsas problemi rəsmi nikahın bağlanmamasında görür:

«Şəriət qanunu ilə kəbin kəsənlər elə bilməsinlər ki, bununla iş bitir. Bizdə din dövlətdən ayrıdır. Nə dövlət dinin işinə, nə də din dövlətin işinə qarışa bilməz. Evlənənlər mütləq kəbin kəsirlər. Vətəndaş bilməlidir ki ,kəbinlə yanaşı, ona nikah da lazımdır. Bu, gələcəkdə onun hüquqlarını müdafiə etməyə kömək edəcək».Vəkil deyir ki, Leylanın işini müdafiə etmək çətindir. Çünki rəsmi nikahı yoxdur. Lakin vəkil hesab edir ki, işgəncə faktı varsa, onu araşdırmaq olar. Bu, iki ölkə arasında olan bir məsələdir».

***Müstəcəb Məmmədov***

# «Türklərin elektrik enerjisi haramdır»



**Yunan kilsəsinin baş yepiskopu «Kipri türk elektriki ilə işıqlandırmaq əvəzinə, lampadan istifadə etməyi daha üstün tuturam» deyib. Kiprin yunan hissəsində elektrik stansiyalarının birində iyul ayının 11-də baş vermiş qəzadan sonra bölgədə elektrik enerjisi kəsilmişdi. Adanın yunan tərəfi bölgəyə enerji verilməsini təmin etmək məqsədi ilə Şimali Kiprdən elektrik almağa məcbur qalmışdı.**

Yunan tərəfinin belə bir addım atması ictimaiyyət nümayəndələri tərəfindən sərt reaksiya doğurub. Türkiyə mətbuatının yaydığı məlumata görə, regionun dini liderləri də işə qarışıb. Yunan Ortodoks Kilsəsinin Baş yepiskopu II Hrisostomos deyib ki, Kipri türk elektriki ilə işıqlandırmaq yerinə, lampa istifadə etməyi daha üstün tuturuq. O, Şimali Kiprdən gələn elektrik enerjisindən istifadə etməyin haram olduğunu deyib. II Hrisostomos deyib ki, gərək bu cür qərar verməzdən əvvəl prezident Dimitris Hristofyas xalqın fikrini öyrənərdi.

Yepiskop xatırladıb ki, 1995-ci ildə Beşbarmaq dağlarında baş verən faciə zamanı Yunan tərəfi də Şimali Kipr TC-yə kömək təklif etmişdi. Lakin həmin vaxt Türkiyə Kipri yardımdan imtina etmişdi. Yunan Kiprində parlament sədri Yannakis Omiru isə hökumətin bu qərarına haqq qazandırıb. Eləcə də Yunan Kiprinin ən iri partiyası olan AKEL-in başçısı Andros Kiprianu ŞKTC-dən enerji almağın doğru bir hərəkət olduğunu deyib: «Bu ölkədə artıq fanatizm və kin duyğuları ilə deyil, məntiqlə hərəkət etmək məcburiyyətindəyik».

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



# Ferrari «Xəzri» modeli buraxa bilər



«Ferrari 2011 Beynəlxalq Dizayn Müsabiqəsi»ndə Samir Sadıqovun layihəsi

**900 LAYİHƏNİN İÇƏRİSİNDƏ İKİNCİ**

*21 yaşlı Samir Sadıqov uşaqlıqda bəlkə də ağlına belə gətirməzdi ki, çəkdiyi avtomobil şəkilləri nə vaxtsa onu beynəlxalq müsabiqənin qalibi edər, eskizləri əsasında dünyanın ən tanınmış şirkətləri avtomobil istehsal edər. Samir Sadıqov 1990-cı il iyulun 20-də Gəncə şəhərində anadan olub. Dediyinə görə, onun üçün ad gününə ən yaxşı hədiyyə «Ferrari 2011 Beynəlxalq Dizayn Müsabiqəsi»nin ikincisi seçilməsidir:*

«Müsabiqəyə dünyanın 50 ən yaxşı dizayn universitetindən ümumilikdə 900 layihə təqdim olunmuşdu. Mən müsabiqəyə bir layihə təqdim etmişdim. Layihəni hazırlamağa dekabrda başlamışdım. Ən böyük ilham mənbəyim isə külək olmuşdu. İdman avtomobilinin layihəsini hazırlayırdım. Yəni avtomobil rahatlıqla havanın içində süzməli idi. Layihəmə ad seçərkən də Ferrariyə uyğun italyan adı yox, özümüzün milli adımızla, «Xəzri» adlandırdım».

İyulun 19-da başa çatmış müsabiqədən sonra Samir Sadıqova iş təklifi də gəlib:



**Dizayner Samir Sadıqov, Formula1 pilotu Fernando Alonso və Ferrari şirkətinin rəhbəri Luca Cordero di Montezemolo. 19 iyul 2011**

«Yarışmanın qalibi olaraq mənə təklif etdikləri mükafatdan başqa, Ferrarinin iş təklifi də var. Amma hazırda mənim başqa şirkətlə müqaviləm olduğu üçün onlara cavab verməmişəm. Ümumiyyətlə, biz işə başlayanda Ferrarinin baş dizaynerləri bizim işi yoxlayırdılar. Və onlar mənə deyirdilər ki, rahatlıqla hansısa özəl müştərimiz üçün sənin eskizinə uyğun avtomobil istehsal edə bilərik. Əlbəttə, əgər edəcəklərsə, bu model «Xəzri» adlanacaq».

Samir Sadıqov İtaliyada yerləşən Avropa Dizayn Universitetini bu il bitirib. Samir Sadıqov yeni müqavilə bağladığı avtomobil şirkətində tezliklə işə başlamağın həyəcanını yaşayır. Əmindir ki, onu gələcəkdə daha böyük uğurlar gözləyir. O, qazandığı uğura görə ailəsi və ölkəsinə minnətdar olduğunu deyir.

***Nüşabə Fətullayeva***

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# Simsiz teleqraf

## Bir gün özü də evakuatorda




Özgəsinin maşinini evakuatora mindirən bir gün özü evakuatora minər.
**Yükləyib: Anonim**

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird 13$^0$E**

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

## 24 saat

**Türksat 42$^0$ E**

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Mobil telefonda:




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz